BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№1 Humanitar elmlər seriyası 2015*

UOT 94 (470)

# KRIMIN TARİXİNƏ DAİR

**T.Ş.BAXŞƏLİYEV**
***Bakı Dövlət Universiteti***
***tbaxşhaliyev @ inbox.ru***

*Məqalə sahillərini Qara və Azov dənizlərinin suları yuyan Krım yarımadasının tarixinə işıq tutmaq məqsədilə qələmə alınıb. Faktlar təsdiq edir ki, Krım yarımadasının ilk sakinləri yunan koloniyaçıları, sonradan tavrlar adı ilə tanınan kimmerilər və skiflər olmuşlar. Yeni feodal münasibətlərinin yarandığı dövrdə isə Krım Bizans imperiyasının tərkibinə daxil edilmişdir. Krım yarımadasında yerləşən ilk türk tayfaları VII-X əsrlərdə Şərqi Avropada mövcud olan türk Xəzər xaqanlığını təmsil edirdi. Qızıl Ordu, Krım xanlığı dövründə Krım yarımadası tamamilə türkləşərək türk qövmlərinin yurduna çevrilmişdir. Türklərin məskunlaşdığı Krım torpaqları çar Rusiyasının işğalçılıq siyasəti nəticəsində onların əlinə keçdi. Krım yarımadasından Türkiyə və Orta Asiyaya köç etməyə zorlanan Krım türklərinin ana yurduna çoxlu sayda rus, ukraynalı və başqa köçmən xalqlar yerləşdirilmişdi. Nəticədə, 1954-cü ildə Sovet rəhbərliyi tərəfindən Ukraynaya verilən Krım 2014-cü ildə Rusiyaya ilhaq edilərək Federasiyanın inzibati ərazisinə daxil edildi.*

**Açar sözlər:** yunanlar, Bizans, skiflər, slavyanlar, Qızıl Ordu, Krım xanlığı, Krım türkləri, rus-türk müharibələri

Cənubi Avropada yerləşən Krım yarımadasının sahillərin Qara və Azov dənizinin suları yuyur, materiklə isə Perekop bərzəxi ilə birləşir. Krımın Qara və Azov dənizi sahilləri girintili və çıxıntılı olduğundan gəmiçilik üçün əlverişli idi. Mahir gəmiqayıran olan yunanlar ticarətlə məşğul olmaq məqsədilə Qara dəniz sahillərində özlərinə yeni daimi məskənlər – koloniyalar salırdılar.

E.ə. VIII-VI əsrlərdə Qara və Azov dənizlərinin sahillərinin əhatə etdiyi Krım yarımadasında yunan koloniyaları meydana gəlmişdir. Ticarətlə məşğul olan sənətkar və tacirlər, torpaq payı olmayan kəndlilər, öz yerlərindən qaçmağa məcbur olan insanlar koloniyaların sakinləri idi. Müstəqil şəhər – dövlət olan hər bir koloniyanın öz hökmdarı, qoşunu, xəzinəsi və pulu var idi. Krım yarımadasında yerləşən Pantikapey (İndiki Kerç), Xersones (Sevastopol yaxınlığında), Feodosiya və başqaları böyük şəhər koloniyalar idi. Şəhərlərin ətrafında isə yerli tayfaların yaşayış məskənləri yerləşirdi. Zaman-zaman şəhər koloniyaların əhalisi tədricən qonşu tayfaların insanları ilə qaynayıb-qarışırdı.

Assuriya mənbələrinə əsasən Avropanın cənubi-şərqinin düzənlik hissəsində yaşayan kimmerilər eramızdan əvvəl VIII-VII əsrlərdə Kiçik Asiyaya soxularaq məğlubiyyətə uğramışlar. Sonradan tarix səhnəsindən yoxa çıxan kimmerilərin bir hissəsi Krımda qalmış və tavrlar adı ilə tanınmışdır.

Herodota görə kimmeriləri e.ə. VII əsr və VI əsrin sonunda tayfa ittifaqında birləşən skiflər sıxışdırıb aradan çıxarmışlar (4, 190).

Zaman keçdikcə skiflər şəhər koloniyaları üzərinə də hücumlar təşkil edirdilər. Xersones üzərinə edilən hücumlar xüsusilə amansız idi. Belə olan halda, şəhər koloniyaları Bospor çarlığının müdafiəsinə sığınmağa məcbur oldular, sonra isə Romaya tabe oldular. E.ə. 480-ci ildə yaranan Bospor çarlığına bütün Kerç yarımadası, Azov dənizinin şimal-şərq, şərq hissəsindəki və Kubanboyu torpaqlar daxil idi. E.ə. I əsrdə Bospor çarlığı Romaya boyun əydi və onun köməyi ilə Xersonesi özünə tabe etdi.

Sarmatların, qotların və hunların hücumları altında IV əsrdə Bospor çarlığı darmadağın edildi. Şəhər koloniyalar isə əsasən viran qoyuldu və tənəzzülə uğradılar.

Eramızdan əvvəl III əsrdə Krımda mərkəzi Neapol olan (Simferopol rayonu) güclü skif quldar dövləti yaranmışdı (8, 12). Arxeoloqların sikif Neapolunda apardığı qazıntı işləri zamanı çoxlu taxıl ehtiyatı aşkar edilmişdi. Əkinçi sikiflər dünyada ən yaxşı buğda yetişdirirdilər. Sikif torpaqlarında becərilən taxıl Yunanıstana ixrac edilirdi. Herodota görə «onlar özləri üçün deyil, satmaq üçün taxıl əkirdilər» (4, 191).

Xalqların böyük köçü, daxili çəkişmə və ziddiyyətlər sayəsində quldarlıq quruluşu tənəzzülə uğrayaraq öz yerini yeni feodal qayda – qanunlarına verirdi. Yeni feodal münasibətlərinin meydana gəlib formalaşdığı Bizans imperiyasının tərkibinə Krım, o cümlədən Qara dəniz sahillərində bir sıra torpaqlar daxil idi.

V əsrin sonu – VI əsrin əvvəllərindən başlayaraq slavyanların mütəmadi şəkildə Bizans imperiyasının hüdudlarına hücumları başlanır. Ruslar IX əsrin əvvəllərində Bizans imperiyasının Krımdakı mülkü olan Xersona və Qara dənizin cənub sahillərinə hücum edirdilər. Bu hücumlar nəticəsində Bizans ruslar ilə ticarət müqaviləsi bağlamağa məcbur olur. X əsrin birinci yarısında bizanslılarla «Varyaqlardan yunanlara gedən böyük yol» vasitəsi ilə sıx ticarət əlaqələri başlandı (6, 10).

Qədim Rus dövləti Bizans imperiyasının siyasi işlərinə də nüfuz etmişdir. Belə ki, Kiçik Asiya əyanları Bizans imperatoru II Vasiliyə qarşı qiyamı vaxtı knyaz Vladimir imperatorun bacısı Anna ilə evlənməsi şərti ilə onun köməyinə rus dəstəsi göndərdi. Qiyam yatırıldıqdan sonra II Vasili şərti yerinə yetirmədiyinə görə Vladimir Krımda Xersonu mühasirə edib tutdu və şəhəri 989-cu ildə Anna ilə evləndikdən sonra Bizansa qaytardı (9,156).

Krım yarımadasının bir hissəsi isə VII-X əsrlərdə Şərqi Avropada mövcud olan türk dövlətlərindən biri Xəzər xaqanlığına tabe idi. IX əsrin ikinci yarısında şərq slavyanlarının bir çox tayfaları xəzərlərə tabe olmuş, onlara bac belə vermişlər.

965-ci ildə Kiyev knyazı Svyatoslav Xəzər ölkəsinə hücum etdi, xaqanlıq dağıldı. Xəzərlərin bir hissəsi Krım yarımadasına çəkildi.

Bundan sonra Svyatoslav Bizansın Krım əyalətinə hücum etdi. Lakin yunanlar onun yanına nümayəndələr göndərərək çoxlu qızıl müqabilində Krıma deyil, Dunay Bolqarıstanına hücum etməyi xahiş etdilər. 967-ci ildə Bizansla anlaşan Svyatoslav böyük qoşunla Dunay ətrafında hücuma keçərək Bolqarıstanı məğlub etdi. Dunaydan Kerçə kimi olan Qara dəniz sahilləri Krım istisna olmaqla Rusa keçdi. Təsadüfü deyil ki, IX-XI əsrlərdə Qara dənizi Rus dənizi adlandırırdılar.

1220-ci ildə monqol sərkərdələri Cəbə və Subutayın başçılığı altında qoşunlar Dərbənddən keçərək qıpçaqları və alanları məğlub edərək Krıma soxuldular və Sudak qalasına çatdılar. Monqollar bu yerləri talan edib əhalinin bir hissəsini qırdılar. Şərqi Avropaya monqolların birinci yürüşü kəşfiyyat xarakteri daşıdığı üçün onlar sonra Şərqə çəkildilər.

On üç ildən sonra monqol ordusu Çingizxanın nəvəsi Batının başçılığı ilə Rus dövlətinin hüdudlarına daxil olaraq Avropaya basqın etdi.

Rus dövlətinin dörd illik müqaviməti monqolların qüvvəsini zəiflətdi və onların Avropanı fəth etmək planlarını pozdu. Başqa bir tərəfdən Rus dövlətinin işğal edilməsi də başa çatmadı, Şimali Qafqazın, Zaqafqaziyanın, Krımın xalqları monqol işğalına qarşı mübarizəsini davam etdirirdilər. Rus dövləti isə rus knyazlarının simasında öz müstəqilliyini nisbətən saxlayırdı və monqollara xərac verən asılı bir ölkə idi.

XIII əsrin 40-cı illərində monqol hücumları sayəsində yeni bir türk dövləti – Qızıl Ordu dövləti meydana gəldi. Qızıl Ordu dövlətinin tərkibinə Dnestrdən tutmuş, Qərbi Sibirə kimi olan torpaqlar, Şimali Xarəzm və Ürgənc şəhəri ilə birlikdə Sır-Dəryanın aşağı axarları, cənubda isə Krım və Qavqaz daxil idi. Cuçi Ulusunun təşkil etdiyi Qızıl Ordu qoşununun əsas hissəsini türk tayfalarından ibarət olan dəstələr təşkil edirdi. Əhalisi 922-ci ildən müsəlman olan Qızıl Ordu Batının kiçik qardaşı Bərkə xanın (1255-1266) müsəlmanlığı qəbul etməsilə Türk – İslam dövləti durumuna gəlmişdir. Bərkə xanın hakimiyyəti dövründə Böyük Xaqanlıqdan ayrıldığını elan edən xan hətta müstəqil bir dövlət kimi hərəkət edərək öz adına sikkə belə kəsdirmişdir. Özbək Xanın (1313-1342) zamanında İslam dini daha da güclənərək rəsmi din halına gəlmişdi. Dövlətin mərkəzi olan Saray şəhəri digər islam ölkələri kimi məscid, mədrəsə, təkkələrlə bəzəndi, hökmdar sarayında alimlər, şeyxlər, seyidlər və xocalar önə çıxdı, mədrəsələr və məktəblər açıldı. Məşhur İslam alimlərindən Kütbəttin-üz-Razi, Şeyx Sadəttin Təftəzi və başqaları Canibek Xan (1340-1357) dövründə Saray şəhərində qalırdı (10, 404).

Qızıl Ordunun XIII-XIV yüzilliklərdə siyasi, iqtisadi və mədəni cəhətdən təkcə Şərqi Avropada deyil, ümumiyyətlə, Türk dünyasının qabaqcıl ölkələrindən biri olduğu şübhəsizdir.

Qızıl Ordu dövlətində iri feodal və köçmə əyanlar arasında baş verən daxili çəkişmələr onun qüdrətini sarsıtdı. Bundan yararlanan rus knyazları

1380-ci ildə Dmitrii Donskoyun rəhbərliyi ilə Kilikovo çölündə Qızıl Ordu xanı Mamayı məğlub etdilər.

XIV əsrin sonlarında Qızıl Ordu dövlətinin Şərq vilayətləri Əmir Teymurun əlinə keçdi. 1480-ci ildə isə «Uqra hadisəsi»ndən sonra rus torpaqlarının Qızıl Ordudan 240 illik vassal asılılığı sona yetdi. XVI əsrin əvvəllərində feodal pərakəndəliyi və daxili çəkişmələr nəticəsində Qızıl Ordu dövləti dağıldı və onun ərazilərində yeni türk dövlətləri, o cümlədən Krım xanlığı meydana gəldi.

Krım xanlığının əhalisi xəzər, qıpçaq, kuman və oğuz türklərindən ibarət olub Krım türkləri adı ilə tanınır. Krım xanlığının qurucusu Hacı Gəray hesab olunur və onun adına kəsilən qədim sikkə 1441-1442-ci il tarixinə aiddir.

İstanbulun fəthindən sonra boğazlara və Qara dənizə hakim olan Osmanlılarla ittifaq bağlayan Hacı Gəray 1454-cü ildə Osmanlı-Krım birgə qoşunu ilə Kiyevi mühasirəyə aldı. Kiyev knyazı Osmanlı sultanına və Krım xanına illik vergi verməyə razı oldu.

1466-cı ildə Hacı Gərayın ölümündən sonra oğulları arasında taxt-tac uğrunda mübarizə başladı. Uzun müddət taxt uğrunda mübarizə aparan Nurdevlət ilə Mənqli Gəray gah Kiyevə, gah da İstanbula sığınaraq sonda 1478-ci ildə Mənqili Gərayın üçüncü dəfə hakimiyyətə gəlməsi ilə qurtardı. Onun hakimiyyəti illərində (1478-1514) Krım xanlığı Osmanlı dövlətinin vassalı olaraq yürüşlərdə iştirak edir və siyasi işlərə belə qarışırdı. Belə ki, Yavuz Səlimin qaynatası olan Mənqli Gəray hətta onun Osmanlı taxtına keçməsinə öz qoşunları ilə kömək etdi.

1502-ci ildə Krım xanı Mənqli Gəray  Qızıl Ordu xanlığına son zərbəni vuraraq onun mərkəzi Saray şəhərini dağıtdı. Bununla da Krım xanlığının Moskva ilə ittifaq siyasəti sonna yetdi, çünki hər iki dövlət Qızıl Ordu torpaqlarına sahib olmaq istəyirdilər.

Krım xanı Məhəmməd Gəray (1514-1523) zaman-zaman Moskva knyazlığı üzərinə basqınlar təşkil edərək şəhərin ətrafını atəşə vermişdir.

1571-ci ildə Krım xanının qoşunları Dövlət Gəray xanın başçılığı altında rus torpaqlarına hücum edərək Moskvaya çatdı. Bu hücum zamanı ölkə talan edilib soyuldu, on minlərlə rus əhalisi məhv edildi və əsir alındı.

Krımlılar yalnız şimalda rus knyazlarına qarşı deyil, İran və Macarıstan cəbhələrində də Osmanlılarla birlikdə daha tez-tez hücumlar təşkil edirdilər. Xüsusilə, 1578-1606-cı illərdə Osmanlıların İran və Avstriya ilə apardığı müharibələrdə Krım ordusu yaxından iştirak edirdi.

XVII əsrin birinci yarısında Osmanlı imperatorluğunun daxili çəkişmələri Krımda da öz təsirini göstərdi. Bu çəkişmələrdən istifadə edən Şimaldakı kazaklar Osmanlı və Krım torpaqlarına basqınlar təşkil etməyə başladılar. 1654-cü ildə onlar Sinopu yandırdılar, 1612-ci ildə Ahyoliyi və 1625-ci ildə İstanbul boğazında Yeniköyü talan etdilər. Sonda 1637-ci ildə Osmanlı və Krım qoşunlarını məğlub edərək Azov qalasını tutaraq beş il öz əllərində saxladılar.

Krım xanı III İslam Gəray (1644-1654) Osmanlılarla birlikdə Şimal düşmənlərinə qarşı uğurlu mübarizə aparmışdı. O, 1644-1647-ci illərdə Rus və Kazaklara qarşı dörd böyük yürüş etmişdir.

Lakin 1684-cü ildə ruslar Avropada qurulan Müqəddəs ittifaqa daxil olaraq Krıma və Azov qalasına basqınlar etməyə başladılar. Beləliklə, bu tarixdən etibarən rus çarları Krım və Qara dəniz, Qafqaz və Balkanlara istilaçı hücumlar edirdilər.

Rus qoşunları ilk dəfə 1736-cı ildə Krım yarımadasını istila edərək Baxasarayı yandırdılar, 2000 xan sarayı kül oldu, o cümlədən Səlim Gərayın qurduğu zəngin kitabxana məhv edildi. 1737-1738-ci illərdə ruslar təkrar gələrək soyğun və talan işlərini davam etdirdilər və Prutda geri verdikləri Azov qalasını təkrar ələ keçirdilər. Bununla da Krım torpaqları yeni istilalar üçün açıq qaldı.

Beləliklə, kazaklar Qara dəniz sahillərindəki Krım şəhərlərini qorxu içərisində saxlayır, Moskva isə bu yerlərdə möhkəmlənmək üçün yeni qalalar inşa edirdi.

Rusiyanın hərəkətləri 1768-1774-cü il Türkiyə ilə müharibəyə səbəb oldu. Osmanlı padişahı tərəfindən Rusiyaya müharibə elan edilməsinin ardından 1769-cu ildə Krım türkləri Gəray xanın başçılığı ilə Bessarabiyadan Rusiyanın cənub ucqarlarına müvəffəqiyyətli basqın etdi. Lakin ölkənin içərilərinə düşmək mümkün olmadı. 1770-ci ildə hücuma keçən rus ordusu Budcaqı, 1771-ci ildə isə Krım yarımadasını istila etdilər. Krım xanı III Gəray gücl ə canını qurtarıb İstanbula sığındı. 1772-ci ildə Rus işğalı altında toplanan qurultayda Sahib Gəray Krımın müstəqil xanı seçildi.

1774-cü il 21 iyulda imzalanmış Kiçik Qaynarca sülh müqaviləsinin 3-cü maddəsinə əsasən Krım, Kuban, Yedisan, Camboyluk və Yedicək tatar xalqları sərbəst və müstəqil elan edildilər. Bu xalqlar öz razılığı ilə Çingiz sülaləsindən seçilən xanların hakimiyyəti altında öz qanun və adətlərinə görə idarə olunmalı idi. Öz-özlərini idarə edən və Allahdan başqa kimsəyə tabe olmayana başqa dövlətlər kimi münasibət görəcək tatarlar müsəlman olduğu üçün isə islamın xəlifəsi sayılan Osmanlıdan şəriətin tələb etdiyi münasibəti görməli idi. Krım yarımadası ilə Buq çayından Kuban çayınadək olan ərazidəki türklər Krım xanının idarəsi altında müstəqil elan edildi, Azov dənizindəki Yeniqala və Kerç, Qara dəniz sahilində Kinburn Rusiyaya verildi (10, 426). Kiçik Qaynarça sülhü Rusiyanı Qara dəniz dövlətinə çevirdi və cənubda onun mövqelərini daha da möhkəmləndirdi.

Belə bir vəziyyətdə isə Krım xanlığının müstəqil fəaliyyət göstərməsi mümkün deyildir və gələcəkdə xanlığın ilhaq edilməsinə şərait yaradırdı.

Təbii olaraq belə bir şəraitdə Krımdakı daxili çəkişmələr şiddətlənərək ölkənin fəlakətə uğraması ilə yekunlaşdı.

Krım xanlığının daxilində hakimiyyət uğrunda gedən mübarizədən istifadə edən ruslar 1777-ci ildə Kəfəyi (Feodosiya) və başqa Krım limanlarını işğal etdi. Müsəlman Krım xalqı kütləvi surətdə Türkiyəyə qaçdı. Ruslar onların yerinə 75000 nəfər mühacir yerləşdirdi. Bu dövrdə Krım yarımadasının

əhalisi təxminən yarım milyon nəfərə çatırdı (10, 427).

1783-cü il aprelin 8-də general Patyomkinin komandanlığı altında rus qoşunları Krıma daxil olaraq qadın, uşaq demədən 30000 Krımlını qətl etdi və xanlığı Rus çarliğinin bir vilayətinə çevirdi. Rusiya ilə yeni bir müharibə aparmaq gücündə olmayan Osmanlı dövləti 1784-cü ildə imzaladığı sazişlə Krım, Taman və Kubanın Rusiyaya ilhaq edilməsini tanıdı.

1787-ci ildə II Yekaterinanın Krımı ziyarət etməsi Osmanlı dövlətini qıcıqlandırdı və Krımı ələ keçirmək üçün sultan Türkiyəsi son bir cəhd etdi. 1787-1791-ci illər Rusiya-Türkiyə müharibəsi başladı.

Müharibədə məğlubiyyətə uğrayan Osmanlı imperiyası 1791-ci ildə Yassıda bağlanmış sülh müqaviləsinə əsasən Krım barəsindəki iddiasından əl çəkdi və onun çar Rusiyası imperiyasına mənsub olmasını təsdiq etdi. Cənubi Buq çayı ilə Dnestr çayı arasındakı torpaqlar çar Rusiyasının əlinə keçdi.

Qara dəniz sahillərində və Balkanlarda bir sıra yerləri tutmaq və təsir üstünlüyü uğrunda gedən mübarizə 1853-cü ilin oktyabrında Rusiya ilə Türkiyə arasında müharibəyə səbəb oldu. 1854-cü ilin martında isə Qara dənizə öz eskadralarını yeridən İngiltərə və Fransa Rusiyaya müharibə elan etdi. Sentyabr ayında ingilis, fransız və türk qoşunları Yevpatoriya yaxınlığında sahilə çıxarıldı və Krımda əsas hərbi dəniz bazası olan Sevastopol üzərinə hücuma başladı. Fransız marşalı Sent – Arno öyünərək deyirdi ki, «Elə ki, mən Krım sahilinə çıxdım Allah bizə bir neçə saat sakit hava bəxş edər ki, əlbəttə mən Sevastopol və Krıma sahib olum» (5, 187-188).

Lakin 11 aydan çox bir vaxt ərzində Sevastopol qarnizonu müttəfiqlərin hücumlarını qəhrəmanlıqla dəf etdi. Yalnız 8 sentyabr 1855-ci il tarixində Sevastopol süqut etdi.

1855-ci ilin sentyabrında türk qoşunlarının baş komandanı Ömər paşa Şamilin naibi Məhəmməd Əmini Qərbi Qafqaz yığma qoşununun rəisi elan edərək ona paşa rütbəsini və general simvollarını verdi. Şeyx Şamil isə Osmanlı muşiri (marşalı) rütbəsinə layiq görüldü. Onlar bunun müqabilində soltana sadiqlik nümayiş etdirərək öz dəstələri ilə birlikdə Ömər paşanın qoşunlarına hərbi əməliyyatlarda kömək etməli idilər. Lakin müttəfiqlərin Qafqaz dağlılarını müharibə gedişində hərbi əməliyyatlara cəlb etmək səyləri demək olar ki, uğur qazanmadı (5, 191).

Krım müharibəsi 1856-cı il martın 30-da imzalanmış Paris sülhü ilə başa çatdı. Dunay çayının mənsəbi və Cənubi Bessarabiya ilə birlikdə Rusiya Qara dənizdə hərbi donanma, sahilboyunda hərbi dəniz cəbbəxanaları saxlamaq hüququnu itirdi. Sülh şərtlərinə görə Rusiya Karsı Türkiyəyə, müttəfiqlər isə işğal etdikləri Sevastopol, Yevpatoriya və başqa şəhərləri Rusiyaya qaytardı.

1871-ci ildə London konfransında çar Rusiyası yenidən Qara dəniz sahillərində qalalar tikmək və Qara dənizdə hərbi donanma saxlamaq hüququ aldı.

Qara dəniz sahilləri və Krım xanlığı Rusiyanın əlinə keçdikdən sonra bu ərazilərdə yaşayan türklər üçün amansız əsarət illəri başladı. Çar Rusiyasının türklərə qarşı tətbiq etdiyi təzyiq, təqib və ayrı-seçkilik siyasəti nəticəsində

Krım tatarları 1772, 1860-1863, 1874-1875, 1891-1902-ci illərdə Türkiyəyə toplu halında köç etdilər. Çar Rusiyası dövlətinin yeritdiyi məqsədyönlü siyasətə uyğun olaraq 1897-ci il əhalinin siyahıyaalma məlumatına görə Krım türkləri yarımada əhalisinin yalnız 35 faizini təşkil edirdi (188000 nəfər) (2,218).

Krım yarımadasını işğal edən çar Rusiyası bu ərazilərə çoxlu sayda rus, ukrayna, alman və bolqar köçmənləri yerləşdirmişdi. Bu isə onu göstərir ki, çar hökuməti Krım tatarlarına qarşı müstəmləkəçilik siyasətindən əl çəkməmişdir.

Rusiyada fevral inqilabı Krımda əsasən dinc yolla həyata keçdi. «Krım türklərinin yaratdıqları Müsəlman komitəsi 1917-ci il martın 25-də müsəlmanların I qurultayını çağırdı. Qurultay Müsəlman İcraiyyə Komitəsini təsis etdi. Burada Krımın mili-ərazi muxtariyyəti məsələsi mühüm siyasi məqsəd kimi qarşıya qoyulurdu. Krıma köçürülmüş əhali qeyd olunan qərarların həyata keçirilməsinin əleyhinə idi» (7, 230).

Krım türklərinin müstəqillik uğrunda apardığı mübarizəyə baxmayaraq 1920-ci il noyabr ayının 11-də Krım tamamilə sovet hakimiyyətinin əsarəti altına girdi və 1921-ci il oktyabr ayının 18-də Krım Muxtar Sovet Sosialist Respublikası elan edildi.

Krım MSSR dövründə 1926-cı il əhalini siyahıyaalma məlumatına görə Krım tatarları ümumi 714.000 nəfərlik Krım əhalisinin 25 faizini təşkil edirdi. (Ruslar 42%, Ukraynalılar 10%). Lakin buna baxmayaraq krım tatarcası ikinci rəsmi dil olaraq qəbul edilir, bu dildə təhsil və mədəni tədbirlər həyata keçirilirdi (3, 262).

Böyük Vətən Müharibəsi illərində Krım yarımadası amansız döyüş səhnələrinə şahid olmuşdur. «1941-ci ilin payızında faşist komandanlığı Krımı tutmaq məqsədilə hərbi əməliyyata başladı. 1941-ci il sentyabrın 25-də düşmən perekop mövqeyində müdafiəni yararaq oktyabrın 25-də çoxlu say üstünlüyü ilə Krıma daxil oldu» (1, 107).

Krımın hər qarış torpağı, Sevastopol, Kerç və başqa şəhərlərin qəhrəman müdafiəsi uğrunda gərgin döyüşlər başladı. Krım uğrunda döyüşən Sovet qoşunlarına yerli əhali hərtərəfli köməklik göstərirdi. Lakin qüvvələr nisbəti qeyri bərabər idi. Odur ki, böyük canlı və texniki qüvvə ilə hücuma keçən alman faşist işğalçıları Krımı zəbt etdilər.

Krımda davam edən iki ildən çox alman işğalı dövründə bəzi krımlılar alman işğalçılarına yardım etmək məqsədilə qurulan milis dəstələrinə qatıldılar.

Sovet qoşunları 1944-cü il yaz hücumu nəticəsində Krımı aldılar, mayın 9-da axşam Sevastopol alındı.

Sovet dövləti Krıma sahib olduqdan sonra almanlarla iş birliyi quranlar təqib edilib cəzalanmağa məruz qaldılar. Bu azmış kimi, bütün Krım xalqına düşmən damğası vurularaq 1944-cü il may ayının 18-də mal-qara nəql edilən vaqonlarda sürgünə göndərildilər. Bu sürgündən hətta Sovet ordusunda döyüşən krımlıların ailələri və ya dağlarda almanlara qarşı döyüşən partizan dəstələrindəki Krım tatarları və onların ailələri də qurtara bilmədi. Həftələrlə

sürən sürgün və sürgündən sonrakı qeyri-insani şərtlər sayəsində 238500 nəfər əhalinin 109956 nəfəri (46, 2 faizi) məhv oldu (2, 219).

1945-ci il iyunun 30-da Krım MSSR ləğv edildi və RSFSR-in bir vilayətinə çevrildi.

Faktlardan aydın olur ki, Rusiya Krımı ilhaq edəndən sonra yerli əhali zaman-zaman represiyalara məruz qalaraq məhv edilməyə çalışılmışdır.

Ukraynanın Rusiyaya birləşdirilməsinin 300 illiyi münasibətilə 1854-cü il yanvarın 25-də Mərkəzi Komitənin birinci katibi N.Xuruşşovun təklifi ilə Krımın Rusiyadan alınaraq Ukraynanın tərkibinə keçilməsi haqqında məsələ MK-nın Rəyasət Heyətində müzakirəyə çıxarılıb və Krım Ukraynaya verilib.

İ.Stalinin ölümündən sonra SSRİ-də meydana gələn mülayimləşmə şəraitində 1956-cı il aprelin 28-də Ali Sovetin Rəyasət Heyətinin qərarı ilə Krım tatarlarına ölkədə hərəkət azadlığı hüququ verilmişdir. Lakin buna baxmayaraq krımlıların çoxunun pasportu olmadığı üçün ölkə daxilində bir yerdən başqa bir yerə getməkdən məhrum idilər.

Odur ki, Krım tatarları siyasi cəhətdən ağlanmaq və ana yurdlarına dönmək məqsədilə böyük bir mübarizəyə başladılar. Bütün həyatını Krım türklərinin azadlıq və müstəqillik mücadiləsinə həsr etmiş krım türk millətçilərinin yaşayan əfsanəsi Mustafa Cəmil oğlunun rəhbərliyi altında krım türkləri totalitar sovet rejimi ilə uzun bir müddət mücadilə apardılar, repressiyalardan, sürgünlərdən keçdilər, ancaq sonunda 1967-ci il sentyabrın 5-də Krım tatarlarının haqsız yerə sürgün edildiyi haqqında bir qanun elan olundu. Bu qanun əsasında 1968-1969-cu illərdə 5-6 minə kimi Krım Tatarı krıma döndü. Lakin çox böyük çətinliklərlə qarşılaşan bu adamların bir qismi öz ana yurdlarından zorla geri göndərildi.

Krım Tatarları öz ana yurdları olan Krıma yerləşdikdən sonra «Krım Tatarlarının Milli Hərəkət Təşkilatı»nın rəhbərliyi ilə rəngarəng siyasi, sosial və mədəni tədbirlər həyata keçirdilər.

Bunlardan ən əhəmiyyətlisi 1991-ci il martın 18-23-də Simferopol (Ağməcid) şəhərində təşkil edilən «millətlərarası İsmayıl Qaspirallı» konfransı və «II Krım Milli Qurultayı» idi. MDB-nin müxtəlif bölgələrindən gələn Krım tatarlarının 250 təmsilçisinin qatıldığı qurultay Mustafa Əbdülcəmil Krımoğlu başda olmaqla 33 nəfərdən ibarət Krım Tatar Milli Məclisini seçdi. Beləliklə, Krım tatarları qeyri-rəsmi olsa da, öz hüquqlarını qorumaq məqsədilə Milli Məclisə sahib oldular.

Sürgün nəticəsində Orta Asiya respublikalarında, əsasən də Özbəkistanda yaşayan Krım tatarları yavaş-yavaş olsa da öz ana vətənləri olan Krıma dönür və yaxud da bu arzu ilə yaşayırlar. Maddi imkan, mənzil və iş yeri çətinlikləri bu işi xeyli mürəkkəbləşdirir.

1991-ci ilin dekabrında SSRİ dağıldıqdan sonra krım tatarlarının (türklərinin) vəziyyəti bir qədər yaxşılaşdı, onlar Ukraynanın tərkibində muxtar respublikanın bərpasına nail oldular. Lakin məlum səbəblərdən krım türkləri əhalinin azlıq hissəsini təşkil etdiyi üçün bu milli deyil ərazi muxtariyyəti idi.

Krım zaman-zaman Ukrayna ilə Rusiya arasında bir çəkişmə məsələsi olaraq nəticədə Krımın Rusiya tərəfindən ilhaq edilməsi ilə başa çatdı.

Qərblə Rusiya arasında qalan Ukraynada vəziyyətin pisləşməsindən istifadə edən qüvvələr təcili olaraq Krımın Rusiyaya ilhaq edilməsi məsələsini gündəmə gətirdilər. Krım yarımadasında Rusiya – Ukrayna ikili vətəndaşlığı olan rus əksəriyyəti yaşayır. Sevastopolda isə Rusiyanın hərbi dəniz bazası var və burada 2042-ci ilə qədər qalmaq hüququna malikdir.

Ukraynada etiraz aksiyaları hakimiyyətin Avropa ittifaqı ilə assosiativ razılaşmadan imtina etməsinə qarşı başlasa da, hərəkat istiqamətini tez bir zamanda korrupsiya və insan hüquqlarının pozulmasına qarşı yönəldi. 2013-cü il noyabrın 30-dan dekabrın 1-nə keçən gecə dinc aksiya iştirakçılarını dağıtmaq cəhdi hakimiyyətə baha başa gəldi və ölkədə faktiki olaraq durum nəzarətdən çıxdı. Yüz minlər Azadlıq Meydanında iqtidarın istefasını tələb edir. Ukrayna prezidenti Viktor Yanukoviç paytaxt Kiyevdən qaçmağa məcbur oldu.

Çar yaşayışı ilə seçilən Viktor Yanukoviçin devrilməsi Rusiya prezidenti V.Putin üçün böyük zərbə oldu. Putin böyüklüyünə görə, ikinci slavyan ölkəsində rəhbərliyə gələn yeni hakimiyyətin Avropa İttifaqının yanında yer alacağından ehtiyat edirdi.

Odur ki, Rusiya rusdilli əhalinin əksəriyyət təşkil etdiyi regionlarda, o cümlədən Krımda yeni hakimiyyətə qarşı müxalifəti dəstəkləməyə başladı.

İlk növbədə martın 16-da Krımın statusu haqqında referendum keçirildi. Referendumda iştirak etmiş seçicilərin 96 faizindən çoxu Krım Muxtar Respublikasının Rusiyanın tərkibinə daxil olmasının lehinə səs verdi.

Rusiya prezidenti Vladimir Putin 2014-cü il martın 18-də Krım Respublikasının Rusiya Federasiyası tərkibinə daxil edilməsi haqqında müqavilənin imzalanması barədə sərəncam verdi. Bunun ardınca Dövlət Duması və Federasiya Şurası Ukraynanın Krım Muxtar Respublikasının Rusiyaya birləşdirilməsinə dair qərar qəbul edərək yarımadanı Krım Respublikası olaraq federasiyanın inzibati ərazisinə daxil etdilər.

Beləliklə, Rusiya 1994-cü ildə Ukraynanın təhlükəsizliyi ilə bağlı Budapeşt Memorandumunu imzalasa da atdığı addımlarla bu prinsipləri pozaraq, beynəlxalq hüquqa zidd olaraq Ukraynanın daxili işlərinə müdaxilə edib və anneksiya (ilhaq) siyasətini həyata keçirib.

Qərblə Rusiyanın Krım yarımadası üstündə yaranan qarşıdurması Krımın daxilində vəziyyəti xeyli dərəcədə kəskinləşdirib. Belə ki, yarımadada yaşayan ruslar RF-yə birləşməyə, ukraynalılar və tatarları isə Ukraynanın tərkibində qalmağa üstünlük verdikləri üçün onların arasında ziddiyyətlər daha da dərinləşib. Qorxu içərisində qalan mili azlıqlar isə artıq Krımdan köç etməyə başlayırlar.

Faktlar təsdiq edir ki, Krım yarımadasının ən qədim və köklü sakinləri tatar türkləri olmuşdur. Buna baxmayaraq Krımla bağlı qəbul edilən sənədlərdə tatar türklərinin öz müqəddəratını təyin etmək hüquqlarını görməməzlikdən gələrək onların mənafeyi nəzərə alınmamışdır.

Odur ki, gələcəkdə Krım yarımadasının müqəddəratının həll edilməsi məsələsi aktual olaraq qalır, bu məsələdə yarımadanın qədim və köklü milləti olan Krımın çoxəsirlik tarixində dərin iz buraxmış tatar türklərinin haqları nəzərə alınmalıdır.

## ƏDƏBİYYAT


1. Битва за Кавказ. (Составители А.А.Гритченко, А.М.Бахышов). Баку: Вэтэн, 2013, 792 с.
2. Devlet Nadir. Çağdaş Türk dünyası. Istanbul: Marmara Universitesi Yayınları. 1989, 327 s.
3. Devlet Nadir. Çağdaş Türklər. Istanbul: Çağ Yayınları, 1993, 607 s.
4. Геродот. История. В девяти книгах. Ленинград: Наука, 1972, 599 с.
5. История Народов Северного Кавказа (конец XVIII в. – 1917 г.) Ответ. ред. акад.А.Л.Нарочницкий. М.: Наука, 1988, 659 с.
6. Кацва Л.А. История Отечества. М.: АСТ – Пресс книга. 2014, 848 с.
7. Mehdiyeva N.C. Türk xalqlarının tarixi. Yeni dövr (XIX – XX əsrin əvvəlləri). Dərslik. Bakı, 2003, 330 s.
8. Орлов А.С., Георгиев В.А., Георгиева Н.Г., Сивохина Т.А. История России. Учеб.: М.: Проспект. 2006, 528 с.
9. Orta əsrlər tarixi. 2 cilddə. I c. (S.D.Skazkinin və b. redaktəsi ilə) Bakı: Maarif, 1988, 528 s.
10. Türk dünyası EL Kitabı. 4 cilddə. I c., Ankara: Türk kültürünü araştırma enstitüsü yayınları. 1992, 544 s.


## К ИСТОРИИ КРЫМА


**Т.Ш.БАХШАЛИЕВ**


## РЕЗЮМЕ


В статье детально освещается история Крымского полуострова, который омывается Чёрным и Азовским морями. Факты утверждают, что в крымском полуострове с древнейших времен появились греческие колониолисты, киммерийцы (тавры) и скифы. Во время формирования феодальных отношений Крым принадлежал Византийской империи. В течение VII – X вв. Крым оказался в зависимости от тюркского Хазарского каганата. Во второй половине XII – начале XIII веков на пространствах Крымского полуострова жили многочисленные тюркские племена, в том числе монголы и татары. Крымские земли попали в зависимость от Золотой Орды. В XV – XVIII вв. существовало Крымское ханство, в вассальной зависимости от Османской империи до 1783 г.

Россия объявила о присоединении Крыма. Крымское ханство было сокрушено. Многие его жители – тюрки мусульмане бежали в Османскую империю. 1954 году Крымский полуостров был присоединён к УССР, а в 2014 году Россия присоединила Крым к себе.



**Ключевые слова:** греки, Византия, скифы, славяне, Золотая Орда, Крымское ханство, крымские турки, русско-турецкие войны.

**ON THE CRIMEAN HISTORY**

**T.Sh.BAKHSHALIYEV**

**SUMMARY**

This article has been written to throw lights upon the history of the Crimea whose territories are washed by the waters of the Black and Azov seas. Facts prove that the first settlers of the Crimean peninsula were the Greek Colonists, later the Kimmers who were known as the Tavrs and the Skiffs.

When new feudal relations were realized, the peninsula was included into the territories of the Byzantine Empire. The first Turkic tribes settled in the Crimean peninsula were the representatives of the Turkish – Khazar peoples who lived in the eastern parts of Europe in the VII – X centuries. In the times of the Gızıl Ordu and the Crimean Khanate the peninsula entirely became the land of the Turkic peoples. The peninsula inhabited by the Turkic peoples was occupied by the Russian Empire. When the Turks were forced to leave the peninsula for Turkey and the Middle Asia, their motherland was occupied by the people from Russia and Ukraine.

In 1954 the Crimea was included into the territory of the Ukraine and in 2014 Russia annexed the peninsula again.

**Key words:** The Greeks, Byzantine Empire the Skiffs, the Slovenians, Gızıl Ordu, Crimean Khanate, Crimean Turks, Russian – Turksh wars.